# Düzgün strategiya və ardıcıl islahatlar inkişafın əsas şərtidir



***Azərbaycan son illərdə beynəlxalq arenada öz mövqelərini daha da gücləndirib, dünya ölkələri ilə siyasi-iqtisadi əlaqələrini genişləndirib, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığını inkişaf etdirib. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bununla bağlı bir sıra məqamlara toxunub. Dövlətimizin başçısı müraciətində üzv ölkələr tərəfindən Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyə növbəti dəfə etimad göstərilməsini buna parlaq nümunə kimi dəyərləndirib.***

Ümumiyyətlə, respublikamızın Qoşulmama Hərəkatının sədri kimi bütün üzv dövlətlərin maraqlarını müdafiə etməsi, bununla bağlı beynəlxalq hüququn norma və prinsiplərini diqqətdə saxlaması nəticəsində bu təşkilata üzv ölkələrin əksəriyyəti yekdilliklə Azərbaycanın sədrliyini daha bir il uzadaraq böyük etimad göstərib. Başqa sözlə, 120 üzvü olan və BMT-dən sonra ikinci ən böyük təşkilat sayılan Qoşulmama Hərəkatı Azərbaycana bir daha öz dəstəyini ifadə edib.

Azərbaycana yönələn bu inam və etimadın arxasında isə ölkəmizin beynəlxalq səviyyədə irəli sürdüyü təşəbbüsləri uğurla reallaşdıraraq, müsbət nəticələr əldə etməsi amili dayanır. Respublikamızın Qoşulmama Hərəkatının sədri qismində COVID-19 pandemiyasına qarşı mübarizə naminə beynəlxalq səylərin birləşdirilməsi sahəsində qlobal liderliyini davam etdirməsi bu amilin bariz ifadəsidir. Bu, eyni zamanda, dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycanın pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən biri olmasının təsdiqidir.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının 2020-ci ilin may ayında reallaşan Zirvə toplantısı, dekabr ayında 150-dən artıq dövlətin dəstəyi ilə gerçəkləşən BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası, Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamənin 2021-ci ilin mart ayında yekdilliklə qəbul olunması, bir sözlə, ölkəmizin sədrliyi dövründə bu qurumun qlobal çağırışlarla bağlı mübarizəyə verdiyi töhfə beynəlxalq miqyasda yüksək dəyərləndirilir.

**(ardı 3-cü səhifədə)**

# Düzgün strategiya və ardıcıl islahatlar inkişafın əsas şərtidir



***2021-ci il arxada qaldı. 2021-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İl ərzində qarşımıza qoyduğumuz bütün məqsədlərə çatdıq. Azərbaycan uğurla inkişaf etdi və bu gün daha güclü Azərbaycan dünyada tanınır.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının (İƏT) fəal üzvü kimi bu quruma daxil olan dövlətlərlə də dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərə daim xüsusi önəm verib. Azərbaycan Prezidenti İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bununla bağlı deyib: "İslam Əməkdaşlıq Təşkilatı ənənəvi olaraq Azərbaycanın haqlı mövqeyini dəstəkləyən beynəlxalq təşkilatdır. Bu il də bu dəstəyi biz hiss etmişik, müharibədən sonra müharibənin nəticələrinin qəbul etdirilməsi üçün İslam Əməkdaşlıq Təşkilatının fəaliyyətini mən yüksək qiymətləndirirəm".

Azərbaycanın Vətən müharibəsindən əvvəl və sonra haqlı mövqeyini dəstəkləyən beynəlxalq qurumlar arasında Türk Şurası da xüsusi yer tutur. Xatırladaq ki, keçən ilin noyabr ayında keçirilən zirvə görüşündə Türk Dövlətləri Təşkilatı yaradılıb və bu təşkilat Qoşulmama Hərəkatı kimi Azərbaycanın haqlı işində daim ölkəmizə dəstək nümayiş etdirib və son zirvə görüşündə bütün üzv ölkələrin adından Azərbaycana torpaqlarımızın azad edilməsi ilə əlaqədar təbriklərini bildirib. Digər bir təşkilat – NATO da öz zirvə görüşlərində Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü dəstəkləyən qətnamələr qəbul edib.

Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdəki nüfuzundan, ən əsası isə uğurlu strategiyasından, İkinci Qarabağ müharibəsində ədalətli qələbəsinin dəstəklənməsindən, ərazi bütövlüyünün tanınmasından xəbər verir. Prezident İlham Əliyev sözügedən müraciətində bu barədə deyir: "Hesab edirəm ki, müharibədən sonra cərəyan edən proseslər bizim haqlı olduğumuzu bütün dünyaya bir daha sübut etdi. Bunun çox böyük əhəmiyyəti var. Çünki İkinci Qarabağ müharibəsi dövründə bizə qarşı əsassız ittihamlar səsləndirilirdi. Bu əsassız ittihamların heç birinin real təsdiqi olmadı və müharibədən sonrakı dövr bunu bir daha göstərdi. Ona görə, müharibə reallıqlarını, müharibədən sonrakı reallıqları qəbul etdirmək, hesab edirəm ki, siyasi baxımdan çox önəmli hadisə kimi sayıla bilər".

Azərbaycanın bu gün dünyada güclü ölkə kimi tanınmasını ötən 18 il ərzində sosial-iqtisadi sahələrdə əldə edilən mühüm uğurlar da şərtləndirib. Bu müddətdə qazanılan müsbət nəticələr, inkişaf göstəricilərinin yüksəlməsi həyata keçirilən düzgün siyasətin, aparılan islahatların real həyatda təsdiqini əks etdirib, sosial-iqtisadi nailiyyətlərin davamlılığı və dayanıqlı inkişaf üçün etibarlı zəmin yaradıb. Təsadüfi deyildir ki, dünyada yaşanan ən ağır maliyyə və iqtisadi böhran şəraitində belə Prezident İlham Əliyevin çevik, praqmatik siyasəti sayəsində Azərbaycan xarici iqtisadi təsirləri neytrallaşdırıb, nəzərdə tutulan bütün sosial-iqtisadi proqramlar tam gerçəkləşdirilib, iqtisadiyyat artıb.

Bütün bunlara nail olunmasında isə iqtisadiyyatın şaxələndirilməsi, neftdən asılılığın minimuma endirilməsi, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi tədbirləri xüsusi önəm kəsb edib. Bu da, öz növbəsində, əhalinin sosial həyat şəraitinin getdikcə yaxşılaşmasına mühüm təsir göstərib.

Sosial dövlət olan Azərbaycanda iş yerlərinin yaradılmasına, özünüməşğulluğun təmin olunmasına daim həssaslıqla yanaşılır. Ayrı-ayrı proqramların icrası zamanı bu məsələ xüsusi diqqətdə saxlanılır. Ölkənin güclü iqtisadi inkişafı, maliyyə imkanlarının artması da iş yerlərinin yaradılması prosesini sürətləndirir. Beləliklə, respublikada iqtisadi fəallığın davamlı şəkildə artması fonunda yeni iş yerləri açılır, bu isə təbii ki, insanların həyat səviyyəsinin yüksəlməsində özünü qabarıq büruzə verir.

Azərbaycan əvvəlki dövrlərdə olduğu kimi, 2021-ci ildə də Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf yolu keçib, bütün sahələrdə ciddi nailiyyətlər əldə edilib, respublikamız öz iqtisadi tərəqqisi ilə inkişafın milli modelini formalaşdırıb. Ölkəmizin hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması xalq–iqtidar birliyini daha da möhkəmləndirib, vətəndaşların Prezident İlham Əliyevin ətrafında sıx birləşməsini gerçəkləşdirib. Dövlət başçısının rəhbərliyi ilə reallaşdırılan mükəmməl iqtisadi strategiya nəticəsində islahatların davamlılığı təmin edilib, iqtisadi inkişaf daha da sürətlənib.

Azərbaycanın son 18 ildə əldə etdiyi nailiyyətlər beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilib. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Davos Dünya İqtisadi Forumunun hesabatına əsasən, Azərbaycan hökumətin uzunmüddətli strategiyası üzrə dünyada 10-cu yerdə, ölkə rəhbərliyinin islahatlara sadiqliyi sahəsində isə 5-ci yerdə qərarlaşıb. Yenə də Davos hesabatına əsasən, Azərbaycan əhalinin elektrik enerjisinə əlçatanlıq əmsalına görə dünyada 2-ci, dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci, hava nəqliyyatı xidmətlərinin səmərəliliyinə görə 12-ci, dəniz limanları xidmətlərinin səmərəliliyinə görə 25-ci və yol infrastrukturunun keyfiyyəti baxımından 27-ci yerdədir".

Bütün bunlar onu göstərir ki, dövlətimizin başçısı 2003-cü ildə qarşıya qoyduğu və bəyan etdiyi strateji hədəfləri gerçəkləşdirmək üçün ötən müddətdə istər beynəlxalq miqyasda, istərsə də ölkə daxilində məqsədyönlü, ardıcıl, düşünülmüş siyasət həyata keçirib, iqtisadiyyatı dinamik inkişaf yoluna çıxarıb və "güclü dövlət" konsepsiyasını reallaşdırmağa nail olub. Yaradılan belə bir şərait isə 44 günlük Vətən müharibəsində Azərbaycanın parlaq qələbəsini şərtləndirib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağın azad edilməsindən sonra Azərbaycanda dövlət quruculuğu, milli iqtisadi inkişaf və ictimai həyat yeni mərhələyə daxil olub. İndi respublikamızın regional güc mərkəzi olaraq mövqelərinin daha da möhkəmləndirilməsi, iqtisadiyyatının daha da gücləndirilməsi qarşıya əsas vəzifə kimi qoyulub.

Hazırda ölkədə iqtisadi islahatların sürətləndirilməsi ilə yanaşı, işğaldan azad olunan ərazilərimizə "Böyük qayıdış"ın ən yüksək səviyyədə təmin edilməsi üçün bütün dünyanı heyrətə gətirən layihələr reallaşdırılır. Dövlətimizin başçısının imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmandakı yeni bölgüyə 14 iqtisadi rayon sırasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının da adlarının salınması, Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm addımlar atılması da düşməndən təmizlənən torpaqların tezliklə yeni görkəm alacağından xəbər verir.

Artıq bir ildir ki, Qarabağ və Şərqi Zəngəzurda işğalçının dağıtdığı, xaraba qoyduğu yaşayış sahələrində genişmiqyaslı bərpa-quruculuq işləri gedir, bütün torpaqlarda həyat bərpa olunur. Prezident İlham Əliyev bununla bağlı deyib: "Ərazilərin azad olunmasından dərhal sonra biz genişmiqyaslı yenidənqurma işlərinə başlamışıq ki, artıq onların ilkin nəticələri var. Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq, sıfırdan yeni şəhər və kəndlər salır…".

2022-ci ildə də əldə ediləcək uğurların miqyasını genişləndirmək üçün iqtisadi fəallığın, ərzaq təhlükəsizliyinin təmin edilməsi, makroiqtisadi sabitliyin qorunması və milli valyutanın məzənnəsində dayanıqlığın artırılması, işğaldan azad olunmuş ərazilərin bərpası, hərbçilərin sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması, infrastrukturun müasirləşdirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması, kommunal, enerji, su və digər xidmət sahələrində keyfiyyətin yüksəldilməsi, yol infrastrukturunun yenidən qurulması kimi qarşıya mühüm vəzifələr qoyulub. Düzgün strategiya və ardıcıl islahatlar sayəsində reallaşdırılacaq bu vəzifələr Azərbaycanın dünyada güclü ölkələr sırasında yerini daha da möhkəmləndirəcək.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***